**“Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icra vəziyyətinə dair Dövlət Statistika Komitəsinin 2025-ci il üzrə hesabatı**

| Tədbirlər Planının bəndi | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| 2.4 | Dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə işə qəbul prosedurlarında şəffaflığın artırılması və bu sahədə ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlərin görülməsi | İl ərzində Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinə işə qəbul prosedurlarında ictimai nəzarət mexanizmlərinin tətbiqinin genişləndirilməsi və şəffaflığın artırılması məqsədilə iki vakansiya (Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin baş mühasibi və “Statistika xəbərləri” elmi-praktik jurnalın məsul katibi) barədə Mərkəzin internet səhifəsində elan verilmiş (*http://etsim.azstat.gov.az/az/news-view/106, http://etsim.azstat.gov.az/az/news-view/107),* iddiaçılarla müvafiq müsahibələr keçirilmiş və qanunvericiliyə uyğun olaraq qalib namizədlərin işə qəbulu ilə bağlı məlumatlar Mərkəzin internet səhifəsində (*http://etsim.azstat.gov.az/az/news-view/108, http://etsim.azstat.gov.az/az/news-view/109)* yerləşdirilmişdir. |
| 2.8. | Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı fəaliyyətin sürətləndirilməsi | Elektron kargüzarlığın tətbiqi sahəsində yaranan yeni tələblərlə bağlı müvafiq dəyişikliklərin, texniki problemlərin təxirəsalınmadan, təcili şəkildə aradan qaldırılması, sənəd dövriyyəsi sisteminin fasiləsiz fəaliyyət göstərməsi, bu sahədə aparılan mütəmadi yeniliklərin sənəd dövriyyəsinə operativ şəkildə tətbiq edilməsi, habelə informasiya təhlükəsizliyi ilə bağlı yarana biləcək risklərin aradan qaldırılmasına olan zərurət və s. məsələlər Dövlət Statistika Komitəsində yeni sənəd dövriyyəsinin tətbiqinin vacibliyini şərtləndirmişdir. Bununla bağlı ölkədə tətbiq edilən elektron sənəd dövriyyəsi sistemlərinin funksionallığı, üstünlükləri təhlil edilmiş, “e-Sənəd dövriyyəsi sistemi”nin Dövlət Statistika Komitəsində tətbiqi məqsədəuyğun hesab edilmişdir. “e-Sənəd dövriyyəsi sistemi” sənədlərin sistemə daxil olması, yeni sənədlərin yaradılmasından onların icrası və göndərilməsi mərhələsinədək olan proseslərin avtomatlaşdırılmasını tam dəstəkləməklə, “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununun, “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”ın, “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”nın tələblərinə cavab verməklə yeni funksionallıqları özündə ehtiva edir. Yeni sənəd dövriyyəsi sistemi Rəqəmsal Sənəd Dövriyyəsi Sisteminə tam inteqrasiya olunmuşdur. |
| | | Statistik məlumatların emalı və yoxlanması prosesinin keyfiyyətinin təmin edilməsi üçün Keyfiyyətə nəzarət elektron cədvəllərinin proqram təminatında milli hesablar və makroiqtisadi göstəricilər statistikası sahəsinə dair 2-bank (rüblük), 1-sığorta (rüblük) və 1-QKT (illik) rəsmi statistika hesabatı formalarının təkmilləşdirilməsi ilə əlaqədar müvafiq |

| Tədbirlər Planının bəndi | Tədbirin adı | Görülmüş işlər |
|---|---|---|
| | | düzəlişlər edilmiş, təkmilləşdirmə işləri aparılmışdır. Ümumilikdə, 25 rəsmi statistika hesabatı formasına dair ilkin statistik məlumatlardakı mövcud uyğunsuzluqlar nəzarət cədvəlləri vasitəsilə avtomatik aşkar edilərək yol verilmiş xətaların emal prosesində aradan qaldırılması üçün zəruri işlər görülmüşdür. |
| 2.17. | Dövlət orqanları (qurumları) tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı illik hesabatların hazırlanması və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | “Korrupsiya risklərinin qiymətləndirilməsi və qarşısının alınması ilə bağlı Dövlət Statistika Komitəsinin 2025-ci il üzrə tədbirlər planı” hazırlanmış və Komitənin kollegiyasının 15.01.2025-ci il tarixli, 1/4 nömrəli qərarı ilə təsdiq olunmuşdur.<br>Eyni zamanda, tədbirlər planında nəzərdə tutulmuş işlərlə bağlı hesabat hazırlanaraq 2025-ci il 29 dekabr tarixli, 3-34/2-102/01-2/2025 nömrəli məktubla Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilmişdir. |
| 4.2. | Dövlət xidmətlərinin elektronlaşdırılması və dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında inteqrasiyanın təmin edilməsi üzrə işlərin sürətləndirilməsi, kağız əsaslı xidmətdən məlumat əsaslı xidmətə keçirilməsinin təşkil olunması ilə bağlı fəaliyyətin təmin edilməsi | Dövlət İmtahan Mərkəzindən 2022-ci ildən başlayaraq son 3 ilin yekunları üzrə dövlət qulluqçuları barədə əldə olunan məlumatlar “Dövlət qulluqçularının sayı və tərkibi haqqında” 3-əmək №-li illik rəsmi statistika hesabatının I “Dövlət qulluqçularının cins və yaş qruplarına görə bölgüsü”, II “Dövlət qulluqçularının qulluq stajına görə bölgüsü” və IV “Xidməti fəaliyyəti qiymətləndirilmiş dövlət qulluqçularının sayı” bölmələrinə onlayn rejimdə daxil edilmişdir. Respondentlər tərəfindən hesabat məlumatları onlayn rejimdə proqrama daxil edilərkən hesabatın I, II və IV bölmələrində olan göstəricilər yoxlanılmış, ehtiyac olduğu halda düzəlişlər edilmişdir. Bununla da, müvafiq rəsmi statistika hesabatını təqdim edən respondentlərə düşən statistik yük əhəmiyyətli dərəcədə azaldılmışdır. Müvafiq məlumatların Dövlət Statistika Komitəsinin “İnzibati Məlumatların İdarə Olunması Sistemi - ADİS” sisteminə ötürülməsi də təmin edilmişdir.<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunmuş əmək müqaviləsi bildirişi üzrə müvafiq məlumatların inteqrasiyası nəticəsində qeyri-dövlət sektorunun müxtəlif fəaliyyət sahələrində peşələr və vəzifələr üzrə orta aylıq əməkhaqqı məbləğinə dair şəhər və rayonlar üzrə statistik məlumatlara dair məlumatların toplanması dayandırılmışdır.<br>Elm və Təhsil Nazirliyindən əldə olunan inzibati məlumatların sosial statistikada istifadəsi ilə bağlı müvafiq proqram təminatı hazırlanmışdır. |
| 4.9. | Dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə rəsmi internet saytları və sosial şəbəkələr vasitəsilə mütəmadi elektron məmnunluq sorğularının keçirilməsi, bu | Dövlət Statistika Komitəsinin internet səhifəsinin “Elektron xidmətlər” bölməsində yerləşdirilmiş və mütəmadi keçirilən “İstifadəçi məmnunluğu sorğusu”nun 2025-ci ilin yanvar-noyabr ayları üzrə nəticələri təhlil edilmişdir. Sorğuda iştirak etmiş istifadəçilərin 95,2 faizi “Təqdim edilən elektron xidmətin keyfiyyətindən razısınızmı” sualına “Bəli”, 4,8 faizi “Xeyr”; “Elektron xidmətdən istifadə Sizə hansı üstünlükləri verir” sualına 39,7 faizi “Vaxt itkisini azaldır”, 20,1 faizi “Rahatlığı təmin edir”, 19,1 faizi “Neqativ halların baş verməməsi üçün bir |

| Tədbirlər Planının bəndi | Tədbirin adı | Görülmüş işlər |
| --- | --- | --- |
| | prosesə vətəndaş cəmiyyəti institutlarının və ictimai şuraların cəlb edilməsi | vasitədir", 21,1 faizi "Digər üstünlükləri vardır"; "Elektron xidmətin təqdim edilməsi üçün hazırlanmış onlayn proqram təminatının strukturu Sizi qane edirmi" sualına isə 96,2 faizi "Bəli", 3,8 faizi "Xeyr" cavabını qeyd etmişdir. |
| 5.1. | Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlığın daha da gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi | 23.12.2025-ci il tarixində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri tərəfindən Dövlət Statistika Komitəsi aparatının əməkdaşları üçün "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət" mövzusunda təlim keçirilmişdir. Təlimdə korrupsiya anlayışı və formaları, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, korrupsiya ilə əlaqədar müraciətlərə baxılmasının xüsusiyyətləri, korrupsiya hüquqpozmalarına görə məsuliyyət və digər məsələlər üzrə ətraflı məlumat verilmişdir. |
| 5.2. | Dövlət orqanlarında (qurumlarında) ictimai iştirakçılığın tətbiqinin genişləndirilməsi və ictimai şuraların fəaliyyətinin səmərəliliyinin artırılması | Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının 2025-ci il 15 aprel tarixində keçirilmiş iclasında "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın layihəsi müzakirə edilmişdir. Bundan başqa, 2025-ci il 24-26 sentyabr tarixlərində Bakı şəhərində MDB Dövlətlərarası Statistika Komitəsi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən birgə təşkil olunmuş "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" 3-cü Beynəlxalq Statistika Forumunda da Statistika Şurasının üzvləri iştirak etmişlər.<br>2025-ci il ərzində Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslər tərəfindən şikayət daxil olmamışdır. Bununla yanaşı, Apellyasiya Şurasının iclaslarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrinə dair 13 şikayət ərizəsinə baxılmış və Şurada qəbul edilmiş qərarlara dair məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmişdir.<br>Komitənin elmi-metodoloji şurasında müzakirəyə çıxarılan məsələlərin əhatəsinin genişləndirilməsi və daha konseptual xarakterli, beynəlxalq yenilikləri və yerli qanunvericilikdə edilən dəyişiklikləri özündə əks etdirən, innovativ xarakterli məsələləri müzakirəyə çıxarmaq üçün aidiyyəti sahə şöbələri ilə mütəmadi müzakirələr aparılmış və iclasların gündəlikləri nəzərdə tutulmuş tələblərə uyğun tərtib edilmişdir. 2025-ci il ərzində Komitənin elmi-metodoloji şurasının 9 iclasında 31 məsələ müzakirə edilmiş, keçirilmiş iclaslar barədə məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmiş, geniş oxucu auditoriyasına çatdırılmışdır.<br>Dövlət Statistika Komitəsində "Milli hesablar statistikasının bəzi məsələləri", "Demoqrafiya statistikasının əhali sakinliyinin inkişafı sahəsində mühüm rolu", "İstehlak və istehsalçı |

| Tədbirlər Planının bəndi | Tədbirin adı | Görülmüş işlər |
| --- | --- | --- |
| | | qiymət indekslərinin hesablanmasında istifadə olunan məlumat mənbələri", "Ticarət statistikası sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr" mövzularında seminarlar keçirilmiş və bu tədbirlərə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin nümayəndələri də dəvət olunmuşdur. |
| 6.2. | Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının işçilərində, o cümlədən tibb və təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər görülməsi | Dövlət Statistika Komitəsi aparatının və yerli statistika orqanlarının işçiləri, xüsusilə dövlət qulluğuna yeni qəbul olunmuş əməkdaşları üçün etik və antikorrupsiya davranışının formalaşdırılması məsələləri ilə bağlı 02.12.2025-ci il tarixində 60-dan çox əməkdaşın iştirakı ilə onlayn formatda təlim keçirilmişdir. "Korrupsiyaya qarşı mübarizə haqqında" və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunlarında nəzərdə tutulmuş antikorrupsiya davranış modellərinin spesifik cəhətləri, korrupsiya risklərinin müəyyən edilməsinin əhəmiyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlər, o cümlədən maraqlar toqquşmasının idarə edilməsi formaları, eləcə də etik davranış qaydaları və prinsipləri, onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmlər, məsuliyyət tədbirləri barədə məsələlər iştirakçıların diqqətinə çatdırılmış, mövzular ilə bağlı fikir mübadiləsi aparılmışdır. |
| 6.9. | Kütləvi informasiya vasitələrindən, o cümlədən dövlət orqanlarının (qurumlarının) və bələdiyyələrin öz internet və sosial şəbəkə səhifələrindən istifadə etməklə korrupsiyaya qarşı mübarizə tədbirləri ilə əlaqədar xüsusi buraxılışların təşkili, ictimai müzakirələrin, videokonfransların keçirilməsi təcrübəsinin genişləndirilməsi, bu sahədə müxtəlif videoçarxların, bukletlərin hazırlanması və onların əhali arasında geniş yayılmasının təşviq edilməsi | Korrupsiyaya qarşı mübarizə ilə bağlı ictimaiyyətin məlumatlılığının artıtılması məqsədilə "Korrupsiyaya qarşı mübarizəyə dair yaddaş kitabçası" və "Dövlət qulluqçularının antikorrupsiya davranış modeli" mövzusunda videoçarx hazırlanmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir. |